

# Suqovuşan zəfəri

***"Suqovuşanda artıq yalnız su qovuşmur! Ömür ömürə, qan qana, torpaq torpağa qovuşur Suqovuşanda! Suqovuşan öz doğma ruhuna, doğma sakinlərinə qovuşur! Bu möhtəşəm qovuşmanı, tarixi görüşməni yaşadığımız üçün çox xoşbəxtik! Bu xoşbəxtliyi bizə yaşadan ordumuza, dövlətimizə və dövlət başçımıza minnətdarıq! Ali Baş Komandanımız xalqımıza qələbə müjdələri verdi: öncə, Suqovuşan, ardınca da, Talış (Tərtər), Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq (Cəbrayıl), Aşağı Əbdürrəhmanlı (Füzuli) kəndləri! Beləliklə, 30 ilə yaxın düşmən işğalı altında olan torpaqlarımıza, zəfər yürüşü uğurla davam edir!" Bu fikirləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Suqovuşan zəfərinə münasibət bildirərkən dedi və müzəffər ordumuza, onun qabiliyyətinə, gücünə inandığını əlavə etdi:***

– Oktyabrın 4-də cənab Ali Baş Komandanımız, Cəbrayıl şəhərinin azad edildiyini elan etdi! Bu, həm öncəki qurtuluşların parlaq davamı, həm də hadisələrin mümkün inkişaf tempini, hər açılan sabaha sarsılmaz inamımızı göstərir! Təlaş içində sağa-sola atəş açan düşmən, Gəncəyə, Beyləqana, daha sonra digər ərazilərimizə raket atmaqla düşdüyü girdabı göstərmiş oldu! Ali Baş Komandanına, dövlətinə, ordusuna inanan xalqın nümayəndələri, heç də hər ölkədə, hər xalqda rast gəlmədiyimiz böyük coşğu ilə qələbənin təminində öz töhfəsini vermək üçün can atır.

Suqovuşan və azad edilən digər ərazilərimizin, xüsusilə, Arazboyu, Xudafərinli Cəbrayılın strateji önəmi barədə hərbçilərimizin, ekspertlərin rəyləri ilə tanış olduqca, təkzibedilməz şəkildə görünür ki, "hüququndan keçən əsgər"lərimiz tarix yazır! Düşmənin qoyub qaçdığı döyüş bayraqları, çoxsaylı silah-sursat, hərbi texnika göstərir ki, erməni öz hərbçi namusunu hifz etmək iqtidarında deyil. Görürük ki, azad olunan yerlər kilid nöqtələrə malikdir və digər – daha böyük ərazilərimizin azad olunması üçün fövqəladə əhəmiyyət daşıyır. Digər yandan, cəbhənin gerisindəki mülki əhalimizin düşmən atəşindən daha etibarlı müdafiəsi imkanları genişlənir, habelə düşmənin döyüş ruhunun özlərinə layiq şəkildə sıfırlanması prosesi güclənir.

Bu aqibəti ermənilər haqsızlıqla, soyqırımı aktları törədə-törədə illərlə özləri yaratdılar. Ermənistan sülhə gəlməyərək, hətta bizi daha yeni torpaqların işğalı ilə hədələyərək, bizə hərbdən başqa seçim qoymadı! Onsuz da kövrək xarakterli olan atəşkəs rejimini az qala hər gün pozan Ermənistan silahlı qüvvələri, öz təcavüzkarlığını "guya demokrat" Paşinyanın səbatsız davranışları ilə tamamlayaraq, bu il daha tez-tez hücumlar, təxribatlar törətməkdəydi. İyulda Tovuzda sərhəd təxribatı, avqustda Goranboyda diversiya - kəşfiyyat həmləsi, nəhayət, sentyabrda işğal altındakı Qarabağ torpaqlarından genişmiqyaslı hücum və hərbi təxribatlarla danışıq, sülh anlayışının onlar üçün əyləncə, imitasiya vasitəsi olduğunu bir daha sübut etdilər! Bununla da, bizim əks-həmləmiz, bütün cəbhə boyu güclü hücumumuz qaçılmaz oldu.

"İndi danışıqlardan, sülhdən danışmaq Ermənistan üçün əyləncə mövzusu olmayacaq, artıq buna həyati ehtiyacları var." – deyən deputat bildirdi ki, onlar bir az keçmişə dönüb baxsalar, yaxşı olar: "İlk prezidentləri Petrosyanın illər öncə dediyi "sonralar yalvaracağımız şərtlərə indi razı olmalıyıq" şəklindəki açıqlamalarını Ermənistanın başbilənlərinin indilərdə xatırlayıb-xatırlamadığını deyə bilmərəm, ancaq onu deyə bilərəm ki, cəbhədə yeni situasiya yaranıb. Artıq heç nə öncəki kimi olmayacaq. Bizim uzunmüddətli dözümümüzdən, beynəlxalq hüquqa çağırışlarımızdan nəticə çıxarmağa qabiliyyəti çatmayan, özlərini "keçilməz sədd"lərə, "qalib tərəf üstünlüyü"nə inandıran Ermənistan tərəfi, indi buyursun, düşünmək üçün nə qədər qiymətli vaxt və digər şanslar itirdiyini yaxşı-yaxşı hesablasın.

Ermənistan həmişə beynəlxalq konyunkturaya, havadar dəstəyinə, erməni diaspor və lobbi güclərinin maddi və digər dəstəklərinə bel bağlayırdı. Biz isə haqqın nazilsə də üzülmədiyinə, ədalətin qələbəsinə inanır, haqlı mövqeyimizə, öz daxili gücümüzə arxalanırdıq. Budur, Ermənistan hakimiyyəti, "ictimai-siyasi fikir mərkəzləri" dövlətimizi gücsüz, arxasız, sadəlövh hesab etməkdən nəhayət ki, peşman oldular...

Biz dövlət olaraq, xalq və ölkə olaraq hər zaman məhz haqqın-ədalətin zəfərinə inandıq. Beynəlxalq hüququn təntənəsinə inandıq, öz gücümüzə arxalandıq və əlbəttə, zəfər üçün hazırlaşdıq! İstərdim, xüsusilə vurğulayaq ki, bu gün ön cəbhədə qazandıqlarımız, həm də arxa cəbhədə illər uzunu qazandığımız iqtisadi gücün və beynəlxalq səviyyədə aparılan işin bəhrəsidir! Dövlət – xalq birliyinin bəhrəsidir!

Q.Paşayeva sonda cənab Ali Baş Komandanı, həmçinin bütün hərbçiləri – general, zabit, gizir, çavuş və əzgərlərimizi, şəhid ailələrimizi ürəkdən təbrik edib, yeni qələbələrə sarsılmaz inamını ifadə etdi: "Yaralı hərbçilərimizə, mülki vətəndaşlarımıza tezliklə öz sağlamlıqlarına qovuşmalarını diləyir, şəhidlərimizin ruhuna dərin ehtiramımı bildirirəm!

***Əziz gənclərimizi, ümumən xalqımızı, Azərbaycansevərlərin hər birini cənab İlham Əliyevin Cəbrayılın azad edilməsi münasibəti ilə xalqa müraciətini təkrar dinləməyə, öyrənməyə çağırıram. Bu, günümüzün güzgüsüdür!***

***Bizim işimiz haqq işidir, biz mütləq qalib gələcəyik!***

***Dövlətimiz var olsun!"***

***Hazırladı:***
***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti $g 2020.- 9 oktyabr.- S.7.